**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**UNEC ZAQATALA FİLİALI**

# Beynəlmiləlləşmə Siyasəti

**Zaqatala 2023**

## UNEC ZAQATALA FİLİALININ BEYNƏLMİLƏLLƏŞMƏ SİYASƏTİ

UNEC Zaqatala filialı şimal-qərb regionunun, ölkəmizin inkişafı və yüksək ixtisaslı kadrlara tələbatı təmin etmək, bölgələrdə yaşayan gənclərin seçdikləri ixtisaslar üzrə keyfiyyətli ali təhsilə çıxış imkanlarını genişləndirmək, eləcə də ali təhsildə milli və beynəlxalq dəyərlərə əsaslanaraq ali iqtisadiyyat təhsilli kadr yetişdirməyi təmin edir. Filial UNEC-in regional ali iqtisadi təhsil missiyasının icrasını təmin edir, bundan irəli gələn müsbət nəticələrdən region və dünya ali təhsil məkanında dayanıqlı rəqabət üstünlüklərinin formalaşması üçün şərait yaradır.

Qloballaşma cəmiyyətin müxtəlif sahələrinə, eləcə də ali təhsil sahəsinə və bu sahədə fəaliyyət göstərən insanların və fikirlərinin mübadiləsinə öz güclü təsirini göstərmişdir, iqtisadi, siyasi va sosial dinamikada qlobal qarşılıqlı asılılığın rolu artıq qəbul edildiyindən universitetlərin beynəlmiləlləşmə funksiyası qarşılıqlı asılılığın vacibliyini daha da önə çıxarır. Qlobal trendlərdən bəhrələnmək üçün ali təhsil müəssisələri regional, beynəlxalq, hətta qitələrarası əlaqələrin qurulması, ikitərəfli və çoxtərəfli elmi və akademik əməkdaşlıqların təşkili və müqavilələrin imzalanmasına xüsusi diqqət ayırır. Bu baxımdan prioritet istiqamət qlobal təsirin gücləndirilməsi ilə yanaşı, universitetlərin güclü lokal şəbəkə və birliklər ətrafında birləşməsi, eləcə də birliklərin, qabaqcıl təcrübələrin və strategiyaların mübadiləsinin təmin edilməsidir.

UNEC Zaqatala filialının Beynəlmiləlləşmə siyasətini, habelə istiqamətlərini, məqsəd və əsas aparıcı meyarlarını özündə cəmləyən bu sənəd Azərbaycanın Ali təhsilinin inkişaf və islahatlarına aid olunan dövlət səviyyəli qəbul olunmuş strateji sənədlərə, qanunlara, sərəncamlara və proqramlara uyğun məzmunda hazırlanmış, UNEC Zaqatala filialının 2030- cü il üzrə "UNEC-100" əsasında yaradılan Strateji Fəaliyyət Planını əsas almışdır.

## BEYNƏLMİLƏLLƏŞMƏ KONSEPSİYASI

Beynəlmiləlləşmə hər bir ali təhsil müəssisəsində tədrisin keyfiyyətini və rəqabət qabiliyyətli kadr hazirliğini yüksək səviyyəyə qaldiracaq, ona əhəmiyyətli dərəcədə töhvə verecek strateji konsepsiya kimi qlobal təhsil mühitinin əsas tələblərindən biridir. Beynəlmiləlləşmə tədqiqat, tədris, müxtəlif təhsil pillələri üzrə proqramlar va inzibati heyət də daxil olmaqla bütün sahələri əhatə edən inkişaf strategiyasi kimi nəzərdən keçirilir. Yeni dövrdə beynəlmilləşmə siyasətinə birgə elmi əmakdaşlıqlar və elmi proqramların dizaynı, innovasiya və sahibkarlıq, dövlət və özəl qurumlarla daha sıx əlaqələrin qurulması elementləri də əlavə olunub.

UNEC Zaqatala Filialının beynəlmiləlləşmə siyasəti təhsilin əsas missiyalarını əhatə edən tədris, tədqiqat və cəmiyyətə xidmət üzrə institutsional səviyyədə daha inteqrasiya olunmuş, strateji və hərtərəfli beynəlxalq əməkdaşlığı ehtiva edir. Beynəlmiləlləşmə siyasətinin daxili və xarici istiqamət olmaqla iki istiqamətdə həyata keçirilməsi planlaşdırılır.

UNEC Zaqatala Filialının beynəlmiləlləşmə proqramlarının beynəlxalq tecrübəyə uyğunlaşdırılması, təhsildə keyfiyyət standartlarının müəyyənləşdirilməsi, tədris və tədqiqatın innovativ inkişafı, nəticədə qlobal səviyyədə bacarıqlı vətəndaş və peşəkarlarin yetişməsini nəzərdə tutur. Uyğun profilli yerli ali təhsil müəssisələri ilə birlikdə beynəlxalq layihələrdə iştirak

etmək, faydalı olacaq və beynəlmilləşmə üçün yeni imkanlar yarada biləcək təkliflər üzərindən birgə və ya tək tərəfli formada layihələr hazirlamaq, yerli ali təhsil müəssisələrinin maddi-texniki strukturlarından təlim və tədris məqsədilə istifadə etmək, akademik mübadilə ilə yanaşı təcrübə mübadiləsini də genişləndirmək daxili beynəlmiləlləşmənin mühüm komponentlərindəndir. Daxili beynəlmiləlləşmənin effektiv həyata keçirilməsi üçün savadlı, intellektual tələbə resursunu əldə etməyə ciddi ehtiyac vardır. Filialın ölkədaxili nüfuzunu orta mektəblərin yuxarı siniflərində ixtisas istiqamətləri ilə tanış edərək onları filiala qəbul olmağa cəlb etmək və zəngin tələbə resursu bazası yaradıb onlardan beynəlmiləlləşmədə əsas insan resursu faktoru və indikatoru kimi istifadə etmək lazımdır. Bu çərçivədə filialın tanıtımı ilə bağlı regiondakı orta məktəblərdə görüşlər keçirilmişdir və silsiləvi olaraq bu görüşlər davam etməkdədir.

Xaricdə beynəlmiləlləşmənin önəmli komponentlərinə qarşılıqlı tələbə mübadiləsi, akademik və inzibati heyətin mübadilədə iştirakı, Birgə/ikili dərəcə (diplom) programlarının qurulması və elmi araşdırmaların aparılması, əcnəbi akademik heyətin va tələbəlarin cəlb olunması mexanizminin təkmilləşdirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması, beynəlxalq maliyyə dəstəyi təmin edən layihələrin işlənib hazirlanması kimi fəaliyyət planları daxildir.

## BEYNƏLMİLƏLLƏŞMƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Beynəlmiləlləşmə siyasətinin tətbiqi aşağıdakı əsas istiqamətləri (sahələri) və fəaliyyətləri əhatə edir:

- Tədris proqramlarının beynəlmiləlləşməsi
- Universitetin beynəlxalq imicinin təşviqi
- Tədqiqatların beynəlmiləlləşməsi
- Akademik əməkdaşlıq
- Beynəlxalq nüfuzun artırılması
- Beynəlxalq mobillik imkanlarının artırılması
- Əcnəbi tələbələrin cəlb olunması
- Tələbələrin mübadilə proqramlarında iştirakının artırılması

## HƏDƏF VƏ MƏQSƏD

UNEC Zaqatala filialının Beynəlmiləlləşmə siyasəti UNEC Zaqatala filialının "UNEC-100" əsasında UNEC Zaqatala filialının rəhbər heyətinin rəy və təkliflərinə, "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", nəzərə alınaraq və "UNEC Zaqatala filialının Strateji İnkişaf Planı"na əsaslanılaraq hazırlanmış və hədəfi sistemli, müntəzəm və standartlaşdırılmış proseslər daxilində beynəlmiləlləşmənin həyata keçirilməsi, qiymətləndirilməsi və monitorinqi vasitəsi ilə beynəlmiləlləşmə siyasətinin davamlılığını təmin etməkdir.

UNEC Zaqatala filialının Beynəlmiləlləşmə sənədi aşağıdakı strateji  məqsəd və hədəfləri özündə əks etdirir:

**Məqsəd 1. Tədris proqramlarının beynəlmiləlləşməsi:**

Hədəf 1. Beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli kadrların hazırlığı üçün metodların təkmilləşdirilməsi ;

Hədəf 2. Təhsil proqramlarının milli və beynəlxalq əmək bazarlarının cari tələblərinə uyğunlaşdırılması;

Hədəf 3. Peşəkar xarici mütəxəssislərin tədris prosesinə cəlbi;

Hədəf 4. Universitetin həm yerli, həm də xarici tələbələr üçün akademik təklifini zənginləşdirəcək ingilis dilində təhsil proqramlarının təşkili/Xarici dildə həyata keçirilən birgə təhsil proqramlarının təşkili və təkmilləşdirilməsi;

Hədəf 5. Akademik prosesin rəqəmsallaşması/Rəqəmsallaşma vasitəsilə təlim və tədrisin transformasiyasına dəstək;

Hədəf 6. Professor-müəllim heyəti üçün ixtisasartırma kurslarının, habelə heyətin peşəkar inkişafı üçün əsas iş yerindən ayrılmadan xarici dil vərdişlərinin, eləcədə beynəlxalq təcrübənin öyrənilməsi və inkişafı üzrə kursların təşkili;

Hədəf 7. Müasir tədris texnologiyalarının tətbiqi;

Hədəf 8. Tədris proqramlarının xarici ali təhsil müəssisələrinin təcrübəsi əsasında hazırlanması;

Hədəf 9. Əcnəbi professor-müəllim heyətinin cəlb edilməsi;

Hədəf 10. Beynəlxalq akkreditasiya olunmuş ixtisas və fənn proqramlarının sayının artılıması;

Hədəf 11. 2030-cu ilə qədər beynəlxalq mübadilə proqramlarına müəllim və inzibati işçilərin cəlb edilməsi;

Hədəf 12. Akademik və inzibati heyət üçün xarici dil təhsili imkanının yaradılması;

Hədəf 13. 2030-cu ilə qədər ingilis dilində təhsil proqramlarının sayını davamlı artırmaq;

Hədəf 14. UNEC-də yaradılacaq Xarici Dil Mərkəzinin bir bölməsinin filialda formalaşdırılması;

Hədəf 15. Tələbələr üçün ingilis dilində hazırlıq proqramlarının təklif edilməsi.

**Məqsəd 2. Universitetin beynəlxalq imicinin təşviqi:**

Hədəf 1. Beynəlxalq səviyyəli təşkilatlara üzvlük;

Hədəf 2. UNEC-lə birgə beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələrin qurulması;

Hədəf 3. Beynəlxalq səviyyəli mütəxəssis və tədqiqatçıların yetişdirilməsində irəliləyiş, nüfuzlu xarici tərəfdaş ali təhsil müəssisələrinin seçimi;

Hədəf 4. Beynəlxalq proqramlar çərçivəsində mobillikdə iştirak edən tələbələrin, eləcə də akademik heyətin və akademik mobillik müqavilələrinin sayının artırılması;

Hədəf 5. Spesifik sahələr müəyyən etməklə xarici tərəfdaşlarla əməkdaşlığın effektivliyinin artırılması;

Hədəf 6. Beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrası:

Hədəf 7. Universitetin administrativ, inzibati və akademik heyəti üçün beynəlxalq təcrübə proqramlarının və təlimlərin təşkili ;

Hədəf 8. İkili diplom proqramlarının tətbiqi üçün UNEC təcrübəsindən istfadə edilərək, 2030-cu ilə qədər UDİD VƏ MİNOR ikili diplom proqramlarının tətbiqi;

Hədəf 9. Beynəlxalq mübadilə tələbəsi statusunun müəyyən edilməsi və onlar üçün prosedurların sadələşdirilməsi;

**Məqsəd 3. Tədqiqatların beynəlmiləlləşməsi:**

Hədəf 1. Elmi tədqiqatların, elmi məqalələrin nüfuzlu beynəlxalq elmi jurnallarda dərcinin təşviq edilməsi;

Hədəf 2. Əcnəbi professor-müəllim heyətinin, istedadlı tələbələrin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan elmi-tədqiqat strukturlarının yaradılması və elmi araşdırma proqramlarının hazırlanması;

Hədəf 3. Universitetin tədqiqat imkanlarının (laboratoriyalarının) əhəmiyyətli dərəcədə genişləndirilməsi və modernləşdirilməsi, dünya standartlarına uyğunlaşdırılması;

Hədəf 4. ARWU, QS, THE, Webometrics və digər nüfuzlu reytinq şirkətlərinin sıralamalarında universitetin yer tutması və daha yüksək pillələrdə qərarlaşması üçün zəruri fəaliyyətlərin icrasını təmin etmək;

Hədəf 5. Beynəlxalq qrant proqramlarına layihələr təqdim edilməsi və həmçinin universitetin beynəlxalq qrant layihələrdə tərəfdaş olaraq iştirakının təmin edilməsi;

**Məqsəd 4. Əcnəbi tələbələrin cəlbi:**

Hədəf 1. qonşu ölkələrdən əcnəbi tələbələrin cəlb edilməsi;

Hədəf 2. Tələbələrin ümumi sayına nisbətdə təhsil alan əcnəbi tələbələrin sayının artırılması (o cümlədən xarici dildə tədris olunan proqramlarda);

Hədəf 3. Ali məktəblərə qəbul üzrə beynəlxalq statuslu imtahanların nəticələri əsasında tələbə qəbulu imkanlarının genişləndirilməsi;

Hədəf 4. Əcnəbi tələbə qəbulunun diversifikasiyası (tələbələrin qəbul saylarının coğrafi əhatəsinin artırılması/şaxələndirilməsi);

Hədəf 5. Universitetdə çoxmədəniyyətli və çoxdilli mühitin formalaşdırılması

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

2023-cu ildən başlayaraq fasiləsiz olaraq Strateji İnkişaf Planında nəzərdə tutulan hədəflərə nə qədər nail olunduğunun monitorinq və qiymətləndirilməsi aparılacaq, yetərsiz məqamların ortadan qaldırılması istiqamətində müvafiq tədbirlər görüləcəkdir. Uyğun olaraq UNEC Zaqatala filialının Beynəlmiləlləşmə siyasətinin icrası və təkminləşdirilməsi Strateji İnkişaf Planına uyğun olaraq Beynəlmiləlləşmə sənədində nəzərdə tutulan hədəflərə nə qədər nail olunduğunun monitorinq və qiymətləndirilməsi aparılaraq, yetərsiz məqamların ortadan qaldırılması istiqamətində müvafiq tədbirlər görüləcəkdir. UNEC Zaqatala filialının davamlı uğurlu inkişafı və dinamikasını təmin etmək üçün beynəlmiləlləşmə yanaşmasını tez-tez nəzərdən keçirir və təkminləşdirir.